# "Qarabağ" ordenli rəşadətli döyüşçü



**Mirağa Qasımov haqq savaşımız başlanan gündən Vətən torpaqlarının azadlığı naminə düşmənə qarşı son damla qanına qədər döyüşüb, yaddaşlara əbədi yazılmış igidlik və mərdlik göstərib.**

1995-ci ildə Cəlilabadın Moranlı kəndində anadan olan Mirağa Hafiz oğlu Qasımov yetkinlik yaşına çatanda birinci arzusu düşmən tapdağında olan Vətən torpaqlarını azad görmək olub. Ermənilərin Qarabağda törətdiyi qanlı əməllərlə heç cür barışa bilmirdi. Hər an qanında, ruhunda dövr edən Vətən sevgisi Mirağanı döyüşə çağırırdı. Əsgərliyə yola düşəndə də düşməndən Vətənin qisasını alacağına and içib. Həmçinin deyib ki, ordumuz tezliklə erməni işğalçılarına qalib gələcək, mən də sizin yanınıza zəfər sevinci ilə, alnıaçıq, başıuca qayıdaram..

Mirağa Qasımov 2013-2014-cü illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Hərb sənətinə olan maraq, qəlbində çağlayan Vətən sevgisi 2015-ci ildə onu Dövlət Sərhəd Xidmətinə gətirib. Çevik Hərəkət Qüvvələrinin Çevik Hərəkət Dəstəsində xidmətə başlayan Mirağa yüksək fiziki hazırlığı, intizamı və çalışqanlığı sayəsində qısa müddətdə peşəkar hərbi qulluqçu kimi formalaşıb. Xüsusi döyüş tapşırıqların icrasında, müxtəlif taktiki təlimlərdə yüksək nəticələr göstərərək yoldaşlarının etimadını qazanıb, igidliyi, mərdliyi, dürüstlüyü ilə nümunə olub.

2020-ci ildə Vətən müharibəsi başlayanda Mirağa istəyinə çatıb, 30 il əsarətdə qalan kəndləri, rayonları azad etməkdə rəşadətlə vuruşub. Azad edilmiş yaşayış məskənlərində Azərbaycanın üçrəngli qələbə bayrağı dalğalananda igid döyüşçü Mirağa daha da ruhlanıb, hər savaşda qəlbi qələbə eşqi ilə cuşa gəlib və Vətənə sevgisini layiqincə sübut edib. Füzuli, Cəbrayıl istiqamətlərində gedən qanlı döyüşlərdə düşmənin başına od ələyib. Daha sonra Zəngilan şəhərinin və ətraf ərazilərin azadlığı naminə ermənilərə sarsıdıcı zərbələr vuran bölmələrin tərkibində xüsusi fərqlənib.

21 oktyabr 2020-ci il tarixdə Zəngilanda düşmən qüvvələrinin darmadağın edildiyi yerdə ağır yaralanıb. Bakı şəhərinə təxliyə olunaraq ölkəmizin ən qabaqcıl tibb müəssisələrində müalicə alsa da, noyabrın 12-də əbədiyyət dünyasına qovuşub.

Vətənə, millətə əvəzsiz xidməti ilə ürəklərə köçən kiçik gizir Mirağa Hafiz oğlu Qasımov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və digər medallara layiq görülüb. ■